# ZƏFƏR DASTANI

*poema*



**Arif MUSAZADƏ,**
**AYBnin üzvü**

**(Əvvəli ötən sayımızda)**

Qoy şəhid tək mən olum
Almasın çoxlu canı,
Deyib bağrına basan
Atılan qumbaranı.

Partlayış təsirindən
İtirsə də özünü,
İlk sualı bu oldu
Açan kimi gözünü:

Vətənim qarşısında
Deyin üzüm ağdımı?
Bir xəbər verin mənə,
Qardaşlarım sağdımı?

* * *

Azad olduqca birbir
İşğaldakı bolgələr,
Həzm edə bilmədilər
Bunu düşmən ölkələr.

Axışdılar Bakıya
Aparıcı kanallar,
İlk görüşdən puç oldu
Qurduqları xəyallar.

Komandan zəkasına
Yenə heyran qaldılar,
Siyasi hücumlara
Belə cavab aldılar:

Xalqımla bir ağlayır
Dedi bir də gülürəm,
Nəyi nə vaxt etməyi
Mən çox yaxşı bilirəm.

Qarşımızda hədəf çox,
Çatmalıyıq hədəfə,
Hədəf tək Şuşa deyil,
Xankəndidir bu dəfə.

Bilirik önümüzdə
Bir hiyləgər yağı var,
Bizim də Ərdoğan tək
Arxamızın dağı var.

Bayrakdarı qalxanda
Şahin təki havaya,
Düşmən peşman olurdu
Başladığı davaya.

Savaş dövrü olmadı
Nə gündüz, nə gecəsi,
Durmadan işləyirdi
Çağırış məntəqəsi.

İynə düşməzdi yerə
Könüllülər əlindən,
"Gedirəm" səslənirdi
Hər gələnin dilindən

* * *

Nə bir ordudan qaçan,
Nə fərari var idi,
Bu igid oğullara
Allah özü yar idi.

Oğullardan biri də
Qəhrəman Elvin idi,
Şəhidliyə qovuşdu
Ölməz oldu əbədi.

Döyüşə getmək üçün
Yol axtarar, arardı,
Göndər məni, Komissar,
Deyərək yalvarardı.

Gedim müəllim kimi,
Məktəbə yox, cəbhəyə,
Tutduqlarına görə
Düşmənə dərs verməyə.

Can verdi Vətən üçün,
Dedi ki, bu da azdı,
Şuşaya gedən yolda
Yeni bir tarix yazdı.

* * *

Ordumun əsgərləri
Keçdi dağı, düzləri,
Qaldı ayaq izləri
Hər dərədə, hər kolda
Şuşaya gedən yolda.

Babəkdi, Səttarxandı,
Vətənə şöhrət, şandı,
Hər biri qəhrəmandı,
Düşməni çox sağsolda
Şuşaya gedən yolda.

İgidlər yol açırdı,
Hər yan alov saçırdı,
Düşmən qorxub qaçırdı,
Qaçırdı çaşqın halda
Şuşaya gedən yolda.

* * *

İndi bizə bu yoldan
Öldü var, döndü yoxdu,
Vətənin boynumuzda
Haqqı, hesabı çoxdu.

Deyib cəsur igidlər
Dayanmadan getdilər,
Hədəfə çatmaq üçün
Görün nələr etdilər.

Hamı bir nəfər kimi
Sarıldılar silaha,
Dedilər ümid bizə,
Bir də qalıb Allaha.

Görənlər heyrətləndi
Bu cəsur oğulları,
Keçilməz qayaları
Keçən qəhrəmanları.

Aşıb o qayalardan
Yaratdılar möcüzə,
Girdilər Şuşamıza
Çevrilib görünməzə.

Əlbəyaxa döyüşdə
Dünyaya göstərdilər,
Düşmənə aman verməz
Cəsur bir əsgərdilər.

Bu igid "boz qurd"ların
Gözündən alov saçdı,
Düşmən geri baxmadan
Qorxub tülkü tək qaçdı.

Şuşaya sancan kimi
Mərd oğullar bayrağı,
Uduzduğun boynuna
Qorxudan aldı yağı.

Sağaltdı bu qələbə
Qaysaqlayan yaramı,
Əbədi keçiriləcək
Daha zəfər bayramı.

Şanlı müqəddəs ordu
Əmri yerinə yetirdi,
Otuz illik işğalı
44 günə bitirdi.

Gördü ordumun gücün
Gördü şərəfsiz yağı,
Bildi ki, çatıb sonu,
Qaldırdı ağ bayrağı.

Azad oldu döyüşsüz
Laçınım, Kəlbəcərim,
Qəlbdən əridi getdi
Daş bağlayan qəhərim.

Dedi: Ali Komandan
Az qalıb gün gələcək,
Darıxmasın qoy xalqım,
Hər kəs geri dönəcək.

Vətən, azad olacaq
Hər küncün, hər bucağın,
Hər yurdda, hər yuvada
Şen olacaq ocağın.

Kənd, şəhər, abadlaşdı,
Hər yan cənnətə döndü,
Bu torpaqda əbədi
Düşmən çırağı söndü.

Bir qayıdış başlandı
Doğma Qarabağıma,
Düşmən yandı, yaxıldı
Mənim bu növrağıma.

Şuşada imzalandı
Şuşa bəyannaməsi,
Bir millət, iki dövlət
Reallaşdı kəlməsi.

Dedi qoy Vətənimdən
Rədd olub çıxıb getsin,
Separatçı qüvvələr
Xankəndini tərk etsin.

Çıxıb getmək yerinə
Bildiklərin etdilər,
Fasiləsiz, davamlı
Təxribat törətdilər.

Komandan yetər dedi
Düşmənin təxribatı,
Bezdik, dözdük, bəs eylər,
Başlayaq əməliyyatı.

Cəngavər ordumuza
Heyran qaldı kainat,
Bu möhtəşəm əməliyyat
Çəkdi 24 saat.

Sancdı müzəffər ordu
Bayrağı Xankəndinə,
Tutdu verdiyi sözü
Sadiq qaldı əhdinə.

Vətən tam bütöv oldu,
Haqqı var ki, öyünə,
Rəbbim, şükürlər olsun
Bəxş etdiyin bu günə...!

* * *

Tükənmişdi lap səbrimiz,
Əmr verdi sərkərdəmiz,
Qovdu igid əsgərimiz,
Düşmən qaçdı Qarabağdan.
Gözün aydın Azərbaycan!

Atasına layiq övlad
Dedi, sözün etdi isbat,
Torpağımız oldu azad
Müjdə verdi baş Komandan,
Gözün aydın Azərbaycan!

Səda gələn bax o anda,
Damarımda coşdu qan da,
İndi bizim Zəngilan da
Qurtarmışdı o işğaldan
Gözün aydın Azərbaycan!

Dayanmışdı ayım, ilim,
Danışmırdı, laldı dilim,
Çox sevinir bax Füzulim,
Usanmayır daha candan
Gözün aydın Azərbaycan!

Zəfərimiz haqq savaşın,
Arif, enməz daha başın,
Dayaq durub Türk qardaşım,
Şad xəbərlə deyir cancan
Gözün aydın Azərbaycan!